# İqtisadi islahatlar və real nəticələr

***Azərbaycan iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsinə daxil olub. Yeni mərhələdə əsas hədəf milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Fərman və sərəncamlarda, təsdiq etdiyi Dövlət proqramlarında bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilib. Bunlara ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi, yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması kimi vəzifələri aid etmək olar.***



Son illər respublikamızda demək olar ki, bütün sahələrdə aparılan sistemli islahatlar daha da dərinləşib. Bu islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş qeydə alınıb.

Uğurla reallaşdırılan islahatlar, öz növbəsində, "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Bu hesabatda Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək, ən çox islahat aparan ölkə elan olunub. Yeni hesabatda Azərbaycan 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, ölkəmiz dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə

yüksəlib.

Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizi məhz Azərbaycanda formalaşıb. Ölkəmiz iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə dünya ölkələri arasında öncül yerlərdən birini tutur. Bir sıra reytinq agentlikləri Azərbaycanın potensial imkanlarını yüksək qiymətləndirirlər.

2019-cu il mayın 27-də Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, bu

zident seçkilərindən sonra verilib: "Çünki vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir. Ancaq təbii ki, bu, iqtisadi inkişafa bağlıdır. İqtisadi inkişaf, maddi imkanlar olmasa sosial proqramları həll etmək mümkün olmayacaq. Ona görə iqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə - yüz milyonlarla manat həc-

imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin".

Ölkə başçısı, həmçinin qeyd edib ki, qəbul edilmiş qərarlar üç milyon insanı əhatə edir və bu vətəndaşların maddi vəziyyəti yaxşılaşır.

Cari ilin əvvəlindən təkcə dövlət sektorunda 50 minə yaxın iş yeri yaradılıb. Özəl sektorda da yeni iş yerlərinin yaradılması üçün dövlət bu sahəyə hərtərəfli dəstək göstərir.

Göründüyü kimi, möhkəm ictimai-siyasi sabitlik, zəngin potensial, şaxələndirilmiş iqtisadiyyat, qeyri-neft sektorunun inkişafı, respublikamızın təşəbbüskarı və iştirakçısı olduğu nəhəng transmilli layihələrin uğurla reallaşdırılması, ölkə başısının rəhbərliyi ilə aparılan islahatların istiqamətinin və hədəflərinin düzgün müəyyənləşdirilməsi, qəbul olunan qərarların uğurlu icrası ölkənin sosial-iqtisadi inkişafını sürətləndirib və əhalinin rifahını yaxşılaşdırıb. Ölkə başçısının sosial problemlərin həllinə və dövlət idarəetməsinin təkmilləşdirilməsinə yönələn Sərəncam və fərmanları öz müsbət nəticələrini göstərməkdədir. Belə ki, 2019-cu ilin ilk iki ayında 830 minə yaxın insanın minimum əməkhaqqı 40 faizə qədər, sosial müavinətlər isə orta hesabla 2 dəfə artıb. Ümumilikdə 2019-cu ilin ilk aylarında atılan addımlar təqribən 3 milyona yaxın insanı əhatə edir.

**Zahid Rza,**
**"İki sahil"**